AzərEnerji

# "Azərenerji" ASC-nin "Keyfiyyət üzrə Siyasəti"

Elektrik və istilik enerjisinin istehsalı və ötürülməsi ilə məşğul olan "Azərenerji" ASC, regionda öz fəaliyyəti sahəsində ən iri və qabaqcıl təşkilatdır.

"Azərenerji" ASC-nin başlıca məqsədi, Azərbaycan Respublikasının enerji təhlükəsizliyini etibarlı şəkildə təmin etmək, istehsalat sistemlərinin dayanıqlı işləməsi ilə yanaşı onları davamlı təkmilləşdirmək, zəruri enerji tələbatlarını təmin etməkdir.

"Azərenerji" ASC və onun tabeçiliyində olan müəssisələr "ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sistemləri - Tələblər" Beynəlxalq Standartının tətbiq olunmasını bəyan edərək, aşağıdakı prinsipləri əsas tutur:

- *Gündəlik və gələcək fəaliyyətimizi tənzimləyən elektroenergetika sahəsində mövcud qanunvericilik, Azərbaycan Respublikasının tərəfdaş olduğu beynəlxalq konvensiyalar və xidmətlər üzrə müqavilələrin tələblərini yerinə yetirərək, qarşıya qoyulmuş və ölkənin mənafeyinə xidmət edən məqsədlərin layiqincə həyata keçirilməsi;*

- *İdarəetmə mexanizminin daim təkmilləşməsi üçün aparıcı vasitə olan "ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sistemləri - Tələblər" Beynəlxalq Standartının tələblərinin tətbiqi, təşkilatın fəaliyyətinin ona uyğunlaşdırılması və davamlı inkişafın təmin olunması;*

- *İstehsal güclərinin və göstəricilərinin yüksəldilməsi və inkişaf etdirilməsi;*

- *Elektrik enerjisinə olan tələbatı fasiləsiz təmin edərək, istehsal göstəricilərinin keyfiyyətinin davamlı artırılması;*

- *ISO 9001:2015 Beynəlxalq Standartın tələblərinə uyğun olaraq, Keyfiyyət İdarəetmə Sisteminin daim təkmilləşdirilməsini təmin etmək məqsədi ilə həmin sistemin rəhbərlik tərəfindən davamlı nəzarət və təhlil edilməsi;*

- *Səhmdar Cəmiyyətinin üzərinə düşən məsuliyyətli və şərəfli öhdəliklərin keyfiyyətli və vaxtında yerinə yetirilməsi məqsədi ilə əməkdaşların bilik və təcrübə səviyyəsinin daima artırılması;*

- *"Azerenerji" ASC-nin bütün proseslərində risk və imkanların qiymətləndirilməsinin mütamadi olaraq təsdiq olunmuş qaydalara uyğun olaraq aparılması.*

"Azərenerji" ASC-nin rəhbərliyi "Keyfiyyət üzrə Siyasəti"n işçi heyətin diqqətinə çatdırılması, bütün əməkdaşlar tərəfindən həyata keçirilməsi, onun tələblərinə əməl edilməsi və təkmilləşdirilməsini təmin edir.

**"Azərenerji" ASC-nin Prezidenti** **B.H.Rzayev**

"____" __________ **2020-ci il**